# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

12 iyul 2018-ci il
Cümə axşamı

№ 27 (3391)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

İyulun 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfərə gəlib.

Türkiyə Prezidenti iyulun 10-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Ali qonaq görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarları üstünə də gül dəstələri qoyub.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Şəhidlər xiyabanını ziyarət edib.

Sonra Türkiyə Prezidenti Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoyub, şəhidlik kitabəsinin üstünə gül dəstələri düzüb.

İyulun 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verib.



Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamlayıb.

Türkiyə Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səslənib.

Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olunub.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçib.

Azərbaycan və Türkiyə prezidentləri rəsmi foto çəkdiriblər.

İyulun 10-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə inam ifadə olunub.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə işçi nahar çərçivəsində geniş tərkibdə görüşü olub.

İyulun 10-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

Türkiyə Prezidentinin Azərbaycan Respublikasına rəsmi səfəri iyulun 10-da başa çatıb.

# PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2018-ci İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASI KEÇİRİLİB

İyulun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açaraq bildirib ki, ilin altı ayında qarşıda duran bütün vəzifələr uğurla icra edilib, Azərbaycan öz dinamik inkişaf templərini saxlaya bilib. Bu il Azərbaycan həm iqtisadi, həm beynəlxalq siyasət sahələrində uğurlar əldə edib.

Ölkə rəhbərimiz daha sonra deyib:

-Aprel ayında keçirilmiş prezident seçkiləri bir daha onu göstərdi ki, Azərbaycan xalqı bizim siyasətimizə çox böyük dəstək verir. Seçkilərdə qazandığım inamlı qələbə onu göstərir ki, son 15 il ərzində görülmüş işlər Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Bu böyük dəstək bizə imkan verəcək ki, bundan sonra da ölkəmizi inkişaf yolu ilə inamla irəliyə aparaq…

Seçkilərə kölgə salmaq istəyənlər isə növbəti dəfə iflasa uğradılar. Onların sönük cəhdləri Azərbaycan cəmiyyəti tərəfindən qəbul edilmədi. Onların hərəkətləri cəmiyyət tərəfindən rədd edildi… Bu, onların növbəti iflasıdır, bir daha onu göstərir ki, xalq bizim siyasətimizə alternativ siyasət görmür, onu qəbul etmir və bundan sonra da xalq bizim siyasətimizi dəstəkləyəcək. Bizim siyasətimiz isə xalqın maraqlarını təmin edən siyasətdir. Bizim siyasətimiz müstəqillik siyasətidir, inkişaf siyasətidir. Məhz bizim apardığımız siyasət nəticəsində Azərbaycan son 15 il ərzində çox böyük və şərəfli yol keçmişdir, bütün göstəricilərə görə dünya miqyasında çox yüksək yerlərdədir.

Seçkilərdən sonra bir çox ölkələrin dövlət və hökumət başçıları mənə təbrik məktubları göndərmişlər. Onların arasında dünyanın bütün aparıcı ölkələrinin dövlət və hökumət başçıları vardır. Bu, bir daha onu göstərir ki, beynəlxalq birlik Azərbaycana böyük hörmətlə, böyük inamla yanaşır və Azərbaycanda gedən demokratik proseslər dünya birliyi, dünyanın aparıcı dövlətləri tərəfindən yüksək qiymətləndirilir.

Xarici siyasətə gəldikdə, deyə bilərəm ki, bu ilin altı ayında bu sahədə böyük işlər görülmüşdür, Azərbaycan beynəlxalq əlaqələrini möhkəmləndirə bilmişdir. Qonşu dövlətlərlə bizim ənənəvi dostluq, strateji tərəfdaşlıq əlaqələri vardır.

Bu il Bakıda üzvlərinin sayına görə dünyanın ikinci böyük təşkilatının – Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransı keçirilmişdir. Bu tədbirdə də bizim siyasətimizə dəstək göstərilmişdir. Gələn ildən Azərbaycan bu böyük mötəbər təşkilata sədrlik edəcək. Gələn il Azərbaycanda Zirvə görüşü keçiriləcəkdir. Bu, bir daha ölkəmizə olan hörmətin təzahürüdür. Onu göstərir ki, bizim apardığımız siyasət çox böyük rəğbət doğurur və çox böyük hörmətə layiqdir.

Bu müsbət fonda baxın görün Ermənistanda nələr baş verir. 20 il ərzində kriminal, korrupsioner, qaniçən, oğru, yalançı hakimiyyət tam iflasa uğradı…

Ermənistan əhalisi yaxşı bilir ki, Azərbaycan hansı yüksək zirvəyə qalxa bilibdir: ölkə daxilindəki sabitlik, inkişaf, beynəlxalq əlaqələr, iqtisadi inkişaf, ordu quruculuğu, sosial məsələlərin həlli. Bizim aramızda yerlə-göy qədər fərq var və bu, bir daha göstərdi ki, Ermənistanı bu ağır vəziyyətə salan onların işğalçı siyasətidir. Əgər işğal olmasaydı, Ermənistan da bizim təşəbbüsümüzlə icra edilən layihələrdə yer ala bilərdi. Onlar da başqa ölkələr kimi bizim imkanlarımızdan faydalana bilərdilər və əlbəttə ki, onların iqtisadi vəziyyəti bu gün yaxşı ola bilərdi. O kriminal, 20 il ərzində erməni xalqının qanını içən oğru rejimin siyasəti nəticəsində onlar bu vəziyyətə düşdülər. Ümid edirəm ki, Ermənistanın yeni hökuməti kriminal rejimin səhvlərini təkrarlamayacaq, münaqişənin həlli ilə bağlı konstruktiv mövqe tutacaq və münaqişə tezliklə həllini tapacaq, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcək.

Münaqişənin həllinə gəldikdə isə bunun bir yolu var: işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxarılmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra olunmalıdır...

Qeyd olunub ki, Azərbaycan ordu quruculuğu istiqamətində inamla irəliləyir. **Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, öz taleyimizin sahibiyik, iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektoru 2 faiz, qeyri–neft sənayesi 8,8 faiz, kənd təsərrüfatı 7,6 faiz artıb. Ölkə iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulub. İnflyasiya cəmi 3 faizdir. Əhalinin pul gəlirləri 9,3 faiz artıb. Xarici ticarət dövriyyəsi 35 faiz, ixrac 34 faiz, o cümlədən qeyri-neft ixracı 20 faiz artıb. Xarici ticarətin müsbət saldosu 4,2 milyard dollardır. İlin əvvəlindən valyuta ehtiyatları da artıb və bu gün 44,3 milyard dollar təşkil edir...**

Sonra iqtisadiyyat naziri Şahin Mustafayev, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə, “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin sədri Zakir İbrahimov çıxış edib.

Dövlətimizin başçısı iclasda yekun nitqi söyləyib.

Azərbaycan Prezidenti İlham Əliyev NATO-nun baş katibi Yens Stoltenberqin dəvəti ilə NATO-nun Zirvə toplantısında iştirak etmək üçün iyulun 10-da Belçika Krallığının paytaxtı Brüssel şəhərinə səfərə gedib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb.

*Ətraflı gələn sayımızda.*

**Azərbaycan Prezidenti İlham Əliyev iyulun 5-də Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı iyulun 5-də Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev iyulun 9-da İsveçrə Konfederasiyasının federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohan N.Şnayder-Ammannın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

# RESPUBLİKA BAŞ PROKURORLUĞU, DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏ DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN MƏLUMATI

2018-ci il iyulun 10-da, saat 20 radələrində 150-200 nəfərdən ibarət radikal dini yönümlü bir qrup şəxs Gəncə şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd göstərmişlər.

Xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarının xəbərdarlığına məhəl qoymayan qanunazidd hərəkətlərin iştirakçıları özləri ilə gətirdikləri küt və kəsici-deşici alətlərlə asayiş keşikçilərinə müqavimət göstərmişlər. Polis əməkdaşlarının həyata keçirdikləri qətiyyətli tədbirlərlə onların hüquqazidd əməllərinin qarşısı alınmaqla 40 nəfəri tutularaq Gəncə Şəhər Baş Polis İdarəsinə gətirilmiş, qalanları qaçaraq ərazini tərk etmişlər.

Görülmüş operativ tədbirlərlə təxminən 30 dəqiqə ərzində şəhərin mərkəzində asayiş tam bərpa edilmişdir...

*Bax səh.2.*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, daxili işlər naziri, general-polkovnik Ramil Usubov, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyulun 7-də Quba şəhərində olub.

Rayon Polis Şöbəsində Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarından olan 23 vətəndaşla görüşən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini dinləyib, problemlərinin qanunvericiliyə uyğun şəkildə həlli üçün aidiyyatı baş idarə, idarə və xidmət, həmçinin ərazi polis orqanlarının rəislərinə konkret tapşırıqlar verib. Daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı olan məsələlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Qəbulda iştirak edən vətəndaşlar bölgələrdə mütəmadi olaraq, keçirilən belə görüşlərin təşkilinə, dövlət orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə diqqətlə və həssas yanaşılmasına görə ölkə başçısına minnətdarlıq edib, onun Azərbaycan Respublikasının tərəqqisinə, beynəlxalq imicininin daha da yüksəldilməsinə yönəlmiş siyasətini bundan sonra da dəstəkləyəcəklərini bildiriblər.

*7 iyul 2018-ci il.*

# RESPUBLİKA BAŞ PROKURORLUĞU, DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏ DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN MƏLUMATI

2018-ci il iyulun 10-da, saat 20 radələrində 150-200 nəfərdən ibarət radikal dini yönümlü bir qrup şəxs Gəncə şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd göstərmişlər.

Xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarının xəbərdarlığına məhəl qoymayan qanunazidd hərəkətlərin iştirakçıları özləri ilə gətirdikləri küt və kəsici-deşici alətlərlə asayiş keşikçilərinə müqavimət göstərmişlər. Polis əməkdaşlarının həyata keçirdikləri qətiyyətli tədbirlərlə onların hüquqazidd əməllərinin qarşısı alınmaqla 40 nəfəri tutularaq Gəncə Şəhər Baş Polis İdarəsinə gətirilmiş, qalanları qaçaraq ərazini tərk etmişlər.

Görülmüş operativ tədbirlərlə təxminən 30 dəqiqə ərzində şəhərin mərkəzində asayiş tam bərpa edilmişdir.

Təəssüflə qeyd edirik ki, qanunsuz hərəkətlərin qarşısı alınarkən xidməti vəzifələrini yerinə yetirən iki polis zabiti – Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov radikal ünsürlərin kəsici-deşici alətlərlə yetirdikləri zərbələr nəticəsində şəhid olmuşlar.

Fakt üzrə Baş Prokurorluqda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.3, 120.2.7, 220.1, 221.3, 228.4 və 315.2-ci maddələri ilə cinayət işi başlanılıb.

Cinayətin bütün iştirakçılarının və təşkilatçılarının müəyyən edilib məsuliyyətə cəlb olunmaları məqsədilə zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

Görülən işlərin gedişi barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

*10 iyul 2018-ci il.*

**Respublikanın hüquq-mühafizə orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 10-da Gəncə şəhərində baş vermiş qanunsuz aksiyanın ən fəal iştirakçılarından və xidməti vəzifələrini yerinə yetirən polis zabitlərindən birinin qətlində şübhəli bilinən Qasımov Fərrux Xəqani oğlu vətəndaşlarımızın yaxından köməkliyi ilə tutularaq istintaqa təhvil verilib.**

**Bu cinayətin törədilməsində şübhəli bilinən digər şəxslərin də tutulması istiqamətində zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.**

*11 iyul 2018-ci il.*

# DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB




**İyulun 10-da Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın «2018-ci ilin birinci yarımilliyində xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr haqqında» iclası keçirilib. İclasda Daxili Qoşunların Baş İdarəsinin idarə, şöbə, xidmət rəisləri, hərbi hissələrin komandirləri və müavinləri iştirak ediblər.**

Müşavirədə giriş sözü ilə çıxış edən Hərbi Şuranın sədri, daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov qeyd edib ki, Daxili İşlər Nazirliyinin tərkib hissəsi olan Daxili Qoşunlar 2018-ci ilin birinci yarısında qarşıya qoyulmuş tapşırıqların icrasını yüksək səviyyədə yerinə yetirib, ölkəmizdə keçirilən bütün beynəlxalq əhəmiyyətli və respublika səviyyəli tədbirlərdə ictimai təhlükəsizliyin təmini, ictimai qaydanın qorunması uğurla həyata keçirilib.

General-leytenant Şahin Məmmədov iclasın gündəliyini elan etdikdən sonra 2018-ci ilin birinci yarımilində xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr haqqında Daxili Qoşunlar komandanının 1-ci müavini - Qərargah rəisi, general-mayor Tofiq Hüseynov məruzə ilə çıxış edib.

Bildirilib ki, birinci yarımilin xidməti-döyüş fəaliyyətinə yekun vurularkən ilk növbədə Daxili Qoşunların Ali Hərbi Məktəbində iyun ayının 23-də keçirilən kursantların ilk buraxılış mərasimi qeyd edilməlidir. Digər əlamətdar hadisə kimi Silahlı Qüvvələrin yaranmasının 100 illiyi münasibətilə paytaxtın «Azadlıq» meydanında keçirilən möhtəşəm hərbi paradda Daxili Qoşunların iştirakı vurğulanıb. Həmçinin, Daxili Qoşunların yaradılmasının 26-cı ildönümü ilə əlaqədar keçirilmiş təntənəli mərasim də əlamətdar hadisə kimi diqqətə çatdırılıb.

Qeyd olunub ki, cari ilin birinci yarımili ərzində müəyyən edilmiş və qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının vaxtında, keyfiyyətlə və tam həcmdə yerinə yetirilməsi, nümunəvi nizam-intizam, struktur bölmələrin hərtərəfli təmin edilməsi prioritet məsələlərdən olub. Hissə və bölmələrin yüksək döyüş hazırlığının təmin edilməsi, qüvvə və vasitələrin effektiv istifadəsi, çevik, gizli və fasiləsiz idarəolunma, qarşılıqlı fəaliyyətin təşkili, döyüş xidmətinin aparılmasına, şəxsi heyətin peşə və ixtisas hazırlığının artırılması əsas vəzifələr olaraq Daxili Qoşunların Qərargahı tərəfindən daim diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə komandir heyətinə mürəkkəb şəraitdə düzgün, çevik qərar qəbuletmə bacarıqlarının öyrədilməsinə, şəxsi heyətin nəzəri biliklərinin və praktiki vərdişlərinin artırılmasına, müxtəlif əməliyyat şəraitlərində silah, xüsusi vasitələr və döyüş texnikasından effektiv istifadə edilməsinə, fiziki hazırlığın yüksəldilməsinə, etibarlı və fasiləsiz rabitə əlaqəsinin yaradılmasına, qoşun xidmətinin təşkilinə və zəruri təminatına xüsusi önəm verilib.

Sonra Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi, polkovnik Mətləb Qənbərov çıxış edərək, birinci yarımildə Daxili Qoşunların şəxsi heyəti ilə tərbiyə işinin təşkilinin və hərbi intizamın vəziyyətinin qənaətbəxş olduğunu vurğulayıb və deyib ki, ötən müddət ərzində şəxsi heyətlə tərbiyə işi qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə, xəsarətalma hallarının və nizamnamədənkənar münasibətlərin qarşısının alınmasına, komandir və rəislərin şəxsi nümunəliyinin təmin olunmasına, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasına, hərbi qulluqçuların ictimai-siyasi hazırlıq üzrə biliklərinin artırılmasına yönəldilib.

Daha sonra bir neçə hərbi hissə komandirlərinin mövcud vəziyyət, diqqətçəkən nöqsan və çatışmazlıqların yaranma səbəbləri barədə hesabatları dinlənilib.



Müşavirəyə yekun vuran general - leytenant Ş.Məmmədov ümumilikdə, 2018-ci ilin birinci yarımilində xidməti-döyüş fəaliyyətini qənaətbəxş hesab edərək, növbəti yarımildə də döyüş hazırlığının yüksək səviyyədə saxlamaqla döyüş təliminin keyfiyyətinin artırılması, hərbi intizamın daha da möhkəmləndirilməsi və şəxsi heyətin hərtərəfli təminatı istiqamətində əməli tədbirlərin həyata keçiriləcəyini vurğulayıb. Xüsusi olaraq qeyd edilib ki, Daxili Qoşunların şəxsi heyəti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və daxili işlər naziri, general-polkovnik Ramil Usubovun əmr və göstərişlərini hər an yerinə yetirməyə hazırdır.

Sonda Daxili Qoşunların Komandanı növbəti yarımildə qarşıda duran vəzifələrlə əlaqədar aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verib. O, əldə olunmuş nailiyyətləri qoruyub saxlamaq və davam etdirməklə yanaşı, birinci yarımil ərzində mövcud olmuş nöqsanların öyrənilməsi, yaranma səbəblərinin dərindən araşdırılması, aradan qaldırılması və bir daha təkrarlanmaması üçün qısa müddətdə lazımi tədbirlərin görülməsini tələb edib.

***Rəşad Sarıyev,***
***polkovnik-leytenant***

# YENİ BİNA İSTİFADƏYƏ VERİLDİ



**İyulun 7-də Ucar Rayon Polis Şöbəsinin yeni inzibati binasının açılışı olub.**

**Tədbirdə daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev iştirak edib.**

Əvvəlcə şəxsi heyətlə görüşən nazir müavini daxili işlər naziri, general-polkovnik Ramil Usubovun adından onları salamlayıb, ən xoş arzularını çatdırıb. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ali diqqət və qayğısı sayəsində daxili işlər orqanlarının maddi-texniki bazasının, əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, xidmət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb, onlarca yeni obyektlər tikilərək istismara verilib. Nazir müavini deyib ki, Ucar Rayon Polis Şöbəsinin yeni binasının istifadəyə verilməsi də şəxsi heyətə dövlət qayğısının növbəti əyani təzahürüdür. O, əmin olduğunu bildirib ki, əməkdaşlar bu ali diqqət və qayğıya sabitliyin, əmin-amanlığın nümunəvi qorunması və cinayətkarlıqla qətiyyətli mübarizə işinə verdikləri töhfələrilə cavab verəcəklər.

Məlumat verilib ki, 4 mərtəbəli inzibati binanın ümumi sahəsi 2584 kvadratmetrdir. Müasir standartlara uyğun olan binanın bütün otaqları zəruri avadanlıq, inventar və kommunikasiyalarla təchiz edilib, yeməkxana və digər yardımçı sahələr istifadəyə verilib, həyətdə su anbarı tikilib. Yeni tikilidə 55 xidməti otaq, 133 yerlik akt zalı var. Binada havalandırma, mərkəzi istilik sistemi, qazanxana, rabitə-kommunikasiya və elektrik xətləri quraşdırılıb. Ərazi hasarlanıb, abadlaşdırma, yaşıllaşdırma və xarici işıqlandırma işləri yerinə yetirilib.

Sonra tədbir iştirakçıları yeni binanın Növbətçi hissəsinə, xidməti otaqlara, xüsusi avadanlıq və kompyuter sistemi ilə təchiz edilmiş, virtual dərs keçirilməsi üçün nəzərdə tutulmuş tədris otağına, akt zalına, Müvəqqəti Saxlama Yerinə baxıb, binanın ikinci mərtəbəsinin foyesində ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətini, möhtərəm Prezidentimizin daxili və xarici siyasət sahəsində əldə etdiyi uğurları, daxili işlər orqanlarına xüsusi diqqət və qayğısını əks etdirən fotostendlərlə tanış olublar.

Çıxış edənlər RPŞ-nin şəxsi heyətinin iş şəraitinin daha da yaxşılaşdırılmasına, fəaliyyətin səmərəliliyinin artırılmasına xidmət edəcək və ən müasir standartlara cavab verən yeni inzibati binaya görə ölkə və DİN rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Yeni inzibati binanın açılışında Ucar Rayon İcra Hakimiyyətinin başçısı Mansur Məmmədov iştirak edib.

# DADIMIZA ÇATANLAR

## YERİN ALTINDA DA...

**Polis hadisələrin içindədir, yəni baş verənlərdən ilk xəbərdar olan odur. Polis həm də bəzi qurumlar arasında əlaqələndirici rolunu oynayır. Bu gün "102 Xidməti Zəng Mərkəzi"nin mövcudluğu, onun fəaliyyəti buna bariz nümunədir. Vətəndaş ən ucqarlarda belə üzləşdiyi kiçik bir problemdən narahat olursa və ya özünü köməksiz, çıxılmaz vəziyyətdə hiss edirsə, o zaman sadəcə "102"-yə məlumat verməklə, bir az obrazlı desək, rahat nəfəs ala bilər...**

Keçdiyi yol rahat və asan olmayıb. Dünəndən bu günə miras qalan isə qəhrəmanlıq dolu şanlı tarixdir. Sırasından onlarla qəhrəman boy verib və bu gün onların davamçıları da içdikləri anda sadiqdirlər.

Alnına şəhidlik də yazılıb, bu, vətən üçündür. Amma bir qanun pozucusunun gülləsinə tuş gələndə, ömrü yarıda qırılsa da, onun haqq işini davam etdirənlərin sayı



günü-gündən çoxalır...

Yerin üstündə deyil, həm də yerin altında dada çatan, imdada yetəndir polisimiz. Bunu bir neçə gün öncə yaşadığımız hadisələrdən sonra önümüzə çıxan hər kəsin dilindən eşitdik. Polis olmasaydı... O gün bunu hamı dedi.

Tərifdən min ağac uzağıq...Şahidlər danışır, onlar isə yenə eyni təvazökarlıqla susurlar...

Meqopolisə çevrilən Bakımızda nəqliyyat damarlarının arteriyası metrodur. Hər gün yüzminlərlə insan bu nəqliyyat vasitəsindən istifadə edir. İnsanlar bu xidmətdən məmnundurlar. Niyə? Çünki yerin üstündə itirdikləri vaxta yerin altında qənaət edirlər. Mənzil başına tez və rahat, həm də təhlükəsiz çatırlar. Təhlükəsizliyi də təmin edənlər... Bunu deməyə ehtiyac yoxdur. Polis varsa...

Bax elə o gün yaşananlar bir daha göstərdi ki, polis yerin altında da xilaskardır.

Peşə bayramlarının sevincini yaşayan və metroda təhlükəsizliyi, asayişi təmin edən həmkarlarımız üçün o gün ən böyük sınaqlardan biri idi.

Baş verənləri sosial şəbəkələrdən izlədik və sonra da müşahidələrimizi ümumiləşdirib qərara gəldik ki, fədakar polislərimizə bu yazını ərmağan edək. Bakı Şəhər Baş Polis İdarəsinə bilavasitə tabe olan Metropolitendə Polis Şöbəsinin rəisi, polis polkovniki Samir Hüseynovla görüşdükdə hələ də yorğunluq içində olduğunu gördük. Verəcəyimiz sualı gözləmədən: "Mən təkcə öz əməkdaşlarımla deyil, ümumlikdə Azərbaycan Polisi ilə qurur duydum",- dedi və sonra əlavə etdi: "İyulun ikisində və üçündə platformalarda, stansiyalarda və tunellərdə qalan, ümumilikdə, 30000 min nəfərə yaxın sərnişinin təxliyə edilməsi xeyli zaman alsa da bu işin digər aidiyyatı qurumlarla birlikdə itkisiz yerinə yetirilməsi əsl fədakarlıq idi..."

Şöbə rəisi onu da diqqətimizə çatdırdı ki, həmin gün istirahətdə olan həm metropoliten işçilərinin, həm də polislərin xidmət yerlərinə qayıdaraq öz həmkarlarına kömək etməsi dar ayaqda, çətin gündə birliyin, bütövlüyün mənzərəsini özündə əks etdirirdi.

Fövqəladə Hallar və Səhiyyə nazirliklərinin əməkdaşları da həmrəylik nümayiş etdirərək insanların köməyinə tələsirdilər. Şöbə rəisi iyulun 2-də həm peşə bayramını, həm də 50 illik yubileyini metroda insanların, köməyə ehtiyacı olanların arasında keçirdiyini də dedi...

"Elin gözü tərəzidir". Bunu əbəs yerə deməyiblər. Sosial şəbəkələrdə həmkarlarımızın o istidə, havasızlıqda insanların köməyinə çatmasının, qantərin içində hansı əziyyətlərə qatlaşmasının



şahidi olanların xoş sözlərini, vətəndaş yanğısı ilə ifadə etdikləri fikirləri oxuyanda deməyə bircə sözümüz qalır: Biz bu gücü, əslində, xalqdan və bu doğma Vətəndən alırıq...

Və yeri gəlmişkən, həmkarlarımızın bu ilin altı aylığında gördüyü işlər qənaətbəxşdir. Çünki bizlər bunun həm şahidi olmuşuq, həm də "Mübariz keşikdə"nin səhifələrində oxucularımıza təqdim etmişik. Saytlarda isə "Metroda daha bir cibgir iş başında yaxalandı" başlıqlı xəbərlər də öz yerində...

Qeydə alınmış 20 cinayət hadisəsindən 18-nin üstü "isti izlər"lə açılıb. Mülkiyyət əleyhinə törədilmiş 16 cinayət qeydə alınıb, qeyri-aşkar şəraitdə baş vermiş 13 belə faktdan 11-nin açılması təmin edilib. Narkotiklərlə mübarizədə də həmkarlarımız sayıqlıq nümayiş etdiriblər, beləki, qeydə alınmış 2 faktın üstü "isti izlər"lə açılmışdır...

Bu gün metroda həyat öz axarı ilə davam edir. İnsanlar yenə mənzil başına tələsir və məhz onlara-həmkarlarımıza, həm də metropoliten işçilərinə etibar edirlər. Bilirlər ki, yolda qalmayacaqlar. Qalsalar da...

***Hafiz Təmirov,***
***polis mayoru***

# GÖRƏN-GÖRÜR, QİYMƏTLƏNDİRİR

**Əmin-amanlıq olan yerdə yaşamaq, qurub-yaratmaq üçün yaradılan şəraitin inkişafa səbəb olması danılmazdır.**

Ölkəmizdə insanların hüquq və azadlıqlarını qorumaq dövlətin bütün qurumlarının təməl prinsipidir, xüsusən də asayişin təminatçısı olan polisimizin. Polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsi, vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılması da daxili işlər orqanları əməkdaşlarının xidməti fəaliyyətinin əsas istiqamətlərindəndir.

Daxili işlər orqanları əməkdaşlarının fəaliyyətinin diqqət mərkəzində olmasını, polisin 100 illik yubileyi ərəfəsində ünvanımıza gələn coxlu sayda minnətdarlıq məktubları bir daha təsdiqləyir. Elə bizim də vətəndaşlarla ünsiyyətimiz bəzən bu məktublarla olur. Üzləşdiyi problemə çarə axtaranlar, onu polisin çevik və obyektiv fəaliyyəti sayəsində tapdıqlarında öz hisslərini təşəkkür dolu məktublarda ifadə edirlər. Məktublar göstərir ki, xalqımız öz polisinə güvənir və qürurlanır.

**Bakı şəhər sakini 1-ci qrup əlil Həsən Talıblı** öz məktubunda ona göstərdikləri köməyə, xoş münasibətə və nümunəvi rəftara görə Baş Dövlət Yol Polisi əməkdaşlarına minnətdarlığını yazır. **Paytaxt sakinləri II qrup Qarabağ əlili Elçin Quliyev** və **Misir Əliyev** yollarda təhlükəsizliyin təmin olunmasında Dövlət Yol Polisi əməkdaşlarının fəaliyyətini yüksək dəyərləndirir və onların timsalında Azərbaycan Polisinə təşəkkürlərini bildirirlər.



**Sumqayıt şəhər sakini Günel Məmmədrzayeva** hüquqlarının qorunmasında ona göstərilən köməyə görə Səbail Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

**Paytaxt sakini Afət Kazımova** və **Abşeron sakini Afaq Tahirova** DİN-ə ünvanladıqları məktublarında onlara dəyən ziyanın ödənilməsində göstərdikləri köməyə görə, **Xırdalan şəhər sakini İlkin Fərəcov** isə baş vermiş oğurluq hadisəsinin tez bir zamanda açılmasında peşəkarlığa görə daxili işlər orqanları əməkdaşlarına minnətdarlığını yazır.

**Samux rayon sakini Məmmədağa Nəbiyev** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda Gəncə Rayonlararası Qeydiyyat İmtahan və Texniki Baxış Şöbəsində sürücülük vəsiqəsi almaq üçün imtahanların şəffaf şəkildə keçirilməsindən razılığını ifadə edir.

**Astara rayon sakini Rahim Baxşiyev** şikayətinə tez və ədalətli baxılmasına görə Polis Şöbəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Sankt-Peterburq şəhər sakini Roman Bulko** DİN rəhbərliyinə ünvanladığı məktubunda ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə polisin rolunu yüksək dəyərləndirir.

**Paytaxt sakini Asya Əsgərova** isə müraciətinə tez bir zamanda baxılaraq, hüquqlarının qorunmasında ona göstərilən köməyə görə Bakı Şəhər Baş Polis İdarəsinin rəhbərliyinə minnətdarlığını yazır.

**Paytaxt sakinləri Samirə Eyvazova** və **Dilarə Məlikzadə** şikayətlərinə tez və obyektiv baxılaraq, onlara dəyən ziyanın ödənilməsində göstərdikləri köməyə görə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşlarına təşəkkürlərini bildirirlər.

Polisimiz öz xidməti vəzifəsini yerinə yetirir. O, öz fədakar fəaliyyəti ilə xalqına, vətəninə, andına sadiqliyini göstərir. Vətəndaşların polisin fəaliyyətinə verdiyi dəyər isə hər birimiz üçün önəmlidir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# RESPUBLİKA BAŞ PROKURORLUĞUNUN, DAXİLİ İŞLƏR NAZİRLİYİNİN VƏ DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Xəbər verildiyi kimi, 2018-ci il iyul ayının 3-də Gəncə şəhərində anadan olmuş Yunis Səfərov Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə və Gəncə şəhər Baş Polis İdarəsinin əməkdaşı polis serjantı Qasım Aşbazova odlu silahdan atəş açaraq müxtəlif dərəcəli bədən xəsarətləri yetirmişdir.

Fakt üzrə başlanılmış cinayət işi üzrə həyata keçirilən istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilmişdir ki, Rusiya Federasiyasının vətəndaşı Yunis Səfərovun törətdiyi bu cinayət məqsədyönlü şəkildə həyata keçirilən əvvəlcədən planlaşdırılmış terror aktıdır. O, 2016-cı ildə İran İslam Respublikasına gedərək 8 ay Qum şəhərində yaşamış və bu müddət ərzində Azərbaycan vətəndaşı olan Rasim Əsədovla birgə Suriya Ərəb Respublikasının ərazisində olan silahlı birləşmələrin tərkibində döyüş təlimi keçmişdir.

2017-ci ildə Azərbaycana qayıdaraq Gəncə şəhərinə gəlmiş, həmin ilin iyun ayında odlu silah əldə etmək üçün «Kapitalbank»ın Gəncə filialında postda duran polis əməkdaşına hücum edib, başına küt alətlə xəsarət yetirərək «Makarov» markalı xidməti tapançasını ələ keçirmişdir. Bundan sonra, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevi öldürmək məqsədilə 2018-ci ilin yanvar ayında onu izləmiş, şübhəli davranışı polis əməkdaşının diqqətini cəlb etdiyindən həmin tapançadan atəş açaraq asayiş keşikçisini yaralayıb hadisə yerindən qaçmışdır.

Cari il iyul ayının 3-də isə Gəncə şəhər İcra Hakimiyyətinin qarşısına gələrək, qeyd olunduğu kimi, Elmar Vəliyevi və yanında olan polis əməkdaşını qətlə yetirməyə cəhd etmişdir.

Araşdırmalar göstərmişdir ki, Yunis Səfərovun terror aktını törətməkdə əsas məqsədi Azərbaycanda şəriət qanunları ilə idarə olunan islam dövləti qurmaq, bunun üçün bir neçə tanınmış dövlət məmurunu öldürməklə respublikada ajiotaj, xaos, vahimə yaratmaq, nəticə etibarı ilə hakimiyyəti zorla ələ keçirilməsini təşkil etmək olmuşdur. O, bu məqsədini həyata keçirmək üçün «Müsəlman birliyi hərəkatı» adından Azərbaycan vətəndaşlarına videomüraciət də hazırlayıb onu xarici ölkədə yaşayan məsləkdaşlarına göndərmiş və iyul ayının 3-də Gəncə şəhərində törətdiyi terror aktı baş tuacağı halda həmin müraciətin respublikada yayılmasını nəzərdə tutmuşdur. Videomüraciətdə Yunis Səfərov «Müsəlman birliyi hərəkatı»nın sədri Taleh Bağırzadənin üç körpəsini başsız qoyan şəxsi öldürmüşəm, bundan nümunə götürün. İslamın düşmənlərini öldürün, Azərbaycanda hakimiyyəti islam birliyi ələ almalıdır» deyərək, ölkə əhalisini respublikanın vəzifəli şəxslərinə qarşı silahlı mübarizəyə qalxmağa çağırış etmişdir.

Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə Yunis Səfərovla birgə cinayətin hazırlanmasında iştirak edən mütəşəkkil cinayətkar dəstənin üzvlərindən daha 3 nəfər tutulmuşdur. Bu cinayətkar dəstənin digər üzvlərinin müəyyən edilib məsuliyyətə cəlb olunması üçün tədbirlər davam etdirilir.

Eyni zamanda bildiririk ki, terror aktlarına, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə çağırış edənlərə qarşı qanunla müəyyən edilmiş ən ciddi tədbirlər görüləcəkdir.

Müvafiq cinayət işi üzrə istinaqın gedişi haqqında əlavə məlumat veriləcəkdir.

*6 iyul 2018-ci il.*

# GÖRÜŞƏNƏDƏK, AĞDƏRƏ...



**Ağdərənin işğalından 25 il ötdü. 1993-cü il iyul ayının 7-də rayon işğal edildi.**

Hələ müharibənin başlanğıcında Dağlıq Qarabağdakı bir çox ərazilər kimi Ağdərə də düşmən hərbiçilərinin nəzarəti altına keçmişdi. Lakin 1992-ci il iyul ayının 4-də əks-hücum nəticəsində rayon mərkəzi erməni işğalçılarından azad edildi. Düz 1 il şəhər ətrafındakı kəndlərdə və yüksəkliklərdə aramsız döyüşlər getdi. Əslində, həmin vaxt-müharibənin ilk illərində Azərbaycanın milli ordusu yox idi. Təpədən-dırnağa qədər silahlanmış erməni-rus hərbi birləşmələrinə qarşı, əsasən, könüllülərdən və polis əməkdaşlarından ibarət vətənpərvər oğullarımız vuruşurdu.

Gəncə qiyamı başladı. Həmin vaxt Azərbaycana rəhbərlik edən AXC-Müsavat cütlüyünün səriştəsiz və bacarıqsız iqtidarı nəticəsində ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldı...

Daxildəki hərcmərclikdən məharətlə istifadə edən düşmən Ağdərə şəhərini və rayonun bir çox kəndlərini yenidən işğal etdi.

Bu gün Ağdərə rayonundan olan məcburi köçkünlər ölkəmizin bir çox şəhər və rayonlarında məskunlaşıblar.

Respublika Prezidentinin rəhbərliyi altında ölkəmizin sürətli inkişafı, beynəlxalq aləmdə Azərbaycanın haqq səsinin eşidilməsi onu deməyə əsas verir ki, ərazi bütövlüyümüz mütləq bərpa olunacaq, işğala son qoyulacaq, bütün məcburi köçkünlər kimi, ağdərəlilər də öz ata-baba yurdlarına qayıdacaqlar. Beləliklə, yolumuzu gözləyən bu yurd yeri də dərindən və bir Vətən torpağı kimi rahat nəfəs alacaq...

*Aytən Tahirova,*
*polis leytenantı*

# DAVAMÇILAR...

**Yüz yaşlı polisimizin ənənələrini yaşadan, ona olan inamın və etibarın dayaqlarının daha da möhkəmlənməsində bilik və bacarığını əsirgəməyən gənclərimizi görəndə, onları daha yaxından tanımaq istəyirik. Elə “Mübariz keşikdə”çilərin həm də əsas missiyasından biri tanıyıb-tanıtmaqdır. Yeri gəlmişkən, DİN-ə ünvanlanan təşəkkür məktublarının əksəriyyətində gənc həmkarlarımızdan, onların xidmətindən dönə-dönə qeyd olunur. Bütün bunlar isə onu deməyə əsas verir ki, DİN-də aparılan islahatlar, kadrların seçilməsi, yerləşdirilməsi ictimaiyyət tərəfindən də izlənilir və qiymətləndirilir.**



Polisdə xidmətə başladığı gündən içdiyi andın məsuliyyətini hiss edən, özünü xalqın xidmətçisi olaraq görən, təkcə asayiş keşikçisi kimi deyil, həm də vətəndaş kimi öz hüquqlarını və vəzifələrini yaxşı bilən həmkarlarımız ən çətin anlarda həyatını təhlükəyə belə atmaqdan çəkinmir. Və hər kəs bunun dəfələrlə şahidi olub...

Bu yazını DİN-ə ünvanlanmış vətəndaş məktublarıyla tanış olduqdan sonra yazmağa qərar verdim.

Haqqı görmək, görülən işi təqdir etmək, onu dilə gətirmək ali qələm tutanların, deyərdim ki, ən böyük xoşbəxtliyidir...

Səhər saatlarında xidməti otağının qapısını döyüb içəri boylananda onu yenə də kompyuter arxasında gördüm. Düzü, gəlişimi gözləmirdi.

“Bu ilin altı aylığının yekunlarına göz gəzdirirəm. Əməkdaşlar sağ olsunlar ki, daha ciddi səylə işlərin öhdəsindən gəlməyə çalışıblar”,- dedi.

Söhbətimizə DİN-ə ünvanlanmış təşəkkür məktublarından körpü saldıq. “Və sizi oxucularımızla tanış etməyin məqamı gəlib çatdı”,- deyəndə gülümsədi...

**Sabunçu RPİ İstintaq şöbəsinin rəisi, polis mayoru Hikmət Vəliyev** 1984-cü ilin avqustunda Qafanda doğulub. Məlum hadisələrlə bağlı Bakıya pənah gətiriblər. 2001-ci ildə DİN-in Polis Akademiyasına daxil olub. 2006-cı ildə məzun olduqdan sonra ilk xidmət yeri Abşeron RPİ-də əməliyyat müvəkkili olub. 2008-ci ilin fevralında Sabunçu RPİ-nin 12-ci Polis Bölməsinə təhqiqatçı təyin edilib. İki il təhqiqatçı işlədikdən sonra İstintaq şöbəsinə müstəntiq vəzifəsinə irəli çəkilib.

Baş müstəntiq təyin edildikdən sonra məsuliyyəti birə-beş artıb. Qazandığı təcrübə hər zaman köməyinə çatıb, biliyini, bacarığını təkmilləşdirmək üçün kitablarla dostluğunu kəsməyib, çətinə düşəndə təcrübəli əməkdaşları özünə simsar bilib. Bu ilin yanvarında isə ona DİN rəhbərliyi tərəfindən daha böyük etimad göstərilib və RPİ İstintaq şöbəsinin rəisi təyin edilib.

Polis mayoru Hikmət Vəliyev 17 ildir ki, xidmətdədir, sıramızdadır. Deyir ki, gənclərə göstərilən etimad, onların daha böyük vəzifələrə irəli çəkilməsi əldə edilən uğurların həm məsuliyyətini artırır, həm də onun davamlı olmasını şərtləndirir.

Görülən işlərə də nəzər saldıq. Bu ilin altı ayı ərzində dələduzluğun və digər cinayət əməlinin qurbanı olmuş vətəndaşlara dəymiş 607 893 manatdan 554 124 manat ödətdirilib. Bu da ümumilikdə 91,2 faiz təşkil edir. Yeri gəlmişkən, ötən ilin eyni dövründə bu rəqəm 59, 1 faiz təşkil edib. Altı ay ərzində 217 şəxs barəsində istintaqı tamamlanmış 198 cinayət işi məhkəmələrə göndərilib. Ötən il isə 177 cinayət işi məhkəmələrə göndərilmişdi...

Onunla sağollaşarkən “Gün o gün olsun ki, torpaqlarımızı azad edək və xidmətimizi o torpaqlarda davam etdirək”, fikrinin təsirindən bu günə kimi çıxa bilmirəm.

Nə yaxşı ki, sıramızda belə vətən sevdalı, həm də Vətən həsrətli gənclərimiz də var...

*Hafiz Təmirov,*
*polis mayoru*

# MARAQ DÜNYASI



## BİR QÜLLƏNİN SİRRİ

İtaliyalı alimlər qrupu “Piza” qülləsinin çoxillik dayanıqlığının sirrini öyrənməyə nail olublar.

Beş dərəcəlik mailliyinə baxmayaraq, 58 metrlik qüllə 1280-ci ildən bəri ən azı dörd güclü zəlzələyə tab gətirib. Landşaftın xüsusiyyətlərini və memarlıq fenomeninin quruluşunu tədqiq edən “Roma Tre” Universitetinin alimləri qüllənin dayanıqlığının “qurğu-qrunt” dinamik əks-təsiri ilə bağlı effektlə təmin olunduğunu müəyyən ediblər.

Tədqiqatçıların fikrincə, qüllənin hündürlüyü və sərtliyi onun bünövrəsindəki yumşaq qrunta əks-təsir göstərir və bunun sayəsində memarlıq nümu- nəsi yeraltı təkanlar zamanı torpaqla rezonansa girmir.

Xatırladaq ki, qeyri-adi vəziyyətinə görə dünya şöhrəti qazanan “Piza” qülləsi “Duomo Santa Maria Assunta” kilsəsinin zəng qülləsidir. O, tikinti zamanı maili vəziyyət alıb, sonradan isə maillik bucağı qüllə sabitləşdirilənə qədər tədricən artıb.

## MUSİQİNİN TƏBİƏTƏ TƏSİRİ

Gözəl musiqini ruhun qidası hesab edirlər. Lakin onun sehrinə təkcə insanlar deyil, təbiətdə də düşənlər var. Klassik musiqinin delfin və köpək balıqlarına müsbət təsir etdiyi də məlumdur.

Alimlər musiqinin təbiətə təsirini öyrənmək üçün bitkilər üzərində müşahidələr aparıblar. Məlum olub ki, klassik musiqi sədaları altında noxud iki gün tez yetişir, buğda isə daha tez boy atır. Aqressiv musiqilərin səslənməsi bitkilərin tez solmasına səbəb olur.

Musiqi dinləyərkən insanlar melodiyaya, çiçəklər isə ritmə münasibət bildirir. Sakit və klassik musiqilər hətta suyun üzündə də gözəl fiqurlar yaranmasına səbəb olur. Suyun yanında mənfi yüklü musiqinin səslənməsi zamanı molekulların daha xaotik hərəkəti müşahidə edilir.



## BİR FİNCAN QƏHVƏ

Yaxın gələcəkdə diabet xəstələrinin istifadə etdikləri insulin şpris-qələmini bir fincan qəhvə əvəz edə bilər.

İsveçrə alimləri hazırladıqları xüsusi preparatı dəri altına yerləşdirməklə qanın tərkibində şəkərin xroniki artımını tənzimləyəcək tədqiqat üzərində işləyirlər. Preparatın hüceyrələri hərəkətə gətirməsi və qanda şəkəri normada saxlaması üçün kofein maddəsinin orqanizmə daxil edilməsi lazım gələcək. Diabetli siçanlar üzərində aparılan təcrübə müsbət nəticələr verib. Hazırlanmış implant dəri altına yeridildikdən sonra həmin vaxtadək insulin şpris-qələmindən istifadə edən xəstələr də yeməkdən sonra bir fincan qəhvə ilə qanda qlükozanın mənimsənilməsi və şəkər artımının qarşısının alınmaq mümkün olacaq.




Lakin, insanlar üçün implantın hazırlanması prosesi uzun zaman tələb edir. Növbəti illərdə zəruri testlərin aparılması və onların təsirinin müvafiq səhiyyə instansiyaları tərəfindən təsdiq edilməsi istiqamətində işlər görüləcək. Məqsəd diabet xəstələrini insulin iynəsindən qurtarmaqdır.

İmplant olunacaq preparat altı ay üçün hesablanıb və istifadə müddəti bitdikdən sonra həkimlər tərəfindən dəyişdiriləcək.

*Çingiz Şıxverdiyev*

# YARIŞ KEÇİRİLİB

**Bu günlərdə DİN İdman Cəmiyyətinin Sumqayıt Regional Qurumunun təşkilatçılığı ilə şəhər Olimpiya İdman Kompleksində Azərbaycan Polisinin 100 illiyinə həsr olunmuş cüdo üzrə DİN-in açıq birinciliyi keçirilib.**




Tədbirin əvvəlində Azərbaycanın dövlət himni səsləndirilib.

Sumqayıt Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılov yarış iştirakçılarını salamlayıb. Azərbaycan Polisinin 100 illiyi münasibəti ilə gerçəkləşən bu yarışda onlara uğurlar arzulayıb.

O bildirib ki, bir əsrlik tarixi olan Azərbaycan Polisi keşməkeşli, lakin şərəfli yol keçib, Vətənə, xalqa sədaqətlə və ləyaqətlə xidmət edib, dövlətçiliyin əsas sütunlarından birinə çevrilib.

Qeyd edilib ki, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda vətəndaş qarşıdurmasına son qoyulub, ölkədə sabit inkişaf üçün zəmin yaranıb. Ümummilli liderimizin rəhbərliyi ilə reallaşan islahatlar çərçivəsində daxili işlər orqanlarının fəaliyyətini, habelə insan hüquq və azadlıqlarının təmin edilməsi mexanizmlərini tənzimləyən qanunvericilik bazası yaradılıb, nazirlik sistemində günün tələblərinə cavab verən yeni qurumlar təsis edilib və bu gün də möhtərəm Prezidentimiz cənab İlham Əliyev həmin uğurlu siyasəti davam etdirir.

Daha sonra DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova bildirib ki, respublikamızda, bütün sahələrdə olduğu kimi, idman sahəsində də mühüm nailiyyətlər qazanılıb. Durmadan artan iqtisadi qüdrətimiz, idmana olan diqqət və qayğı nəticəsində ölkəmiz dünyanın idman mərkəzlərindən birinə çevrilib. İdmanın maddi-texniki bazasının gücləndirilməsi, bölgələrdə müasir idman qurğularının tikilməsi on minlərlə yeniyetmə və gəncin idmana cəlb olunmasına şərait yaradıb.

Yarışın açılış mərasimində gimnastların nümunəvi çıxışları və milli rəqslər əsl bayram ovqatı yaradıb.

Komandaların tribuna önündən keçidindən sonra yarışlara start verilib.

Birincilikdə 29 komandadan müxtəlif çəki dərəcələri üzrə 250 nəfər idmançı qələbə uğrunda mübarizə aparıb.

Bayram əhval-ruhiyəsi ilə keçən yarışlarda iştirakçılar arasında qaliblər müəyyənləşib. Komanda birinciliyində ilk üçlükdə Sumqayıt Şəhər Uşaq Gənclər İdman Məktəbi, DİN İdman Cəmiyyətinin Sumqayıt Şəhər Regional Qurumu və Siyəzən rayonundan olan idmançılar qərarlaşıblar.

Regional qurumun baş inspektoru, polis polkovniki Firudin Tağıyev idmançıların yarış hazırlığını yüksək qiymətləndirib, onların gələcəkdə perspektivli cüdoçular kimi yetişəcəyinə inandığını bildirib.

*Zeyni Hüseynov*

# İLQAR MƏMMƏD oğlu BALAKİŞİYEV
# SƏMƏD YUNİS oğlu ABBASOV





**Azərbaycan Respublikasının daxili işlər orqanlarına ağır itki üz vermişdir. Ölkəmizdə sabitliyi və əmin-amanlığı pozmağa çalışan qüvvələrin qanunsuz aksiyasının, hüquqazidd əməllərinin qarşısını alarkən Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov şəhid olmuşlar.**

**İlqar Məmməd oğlu Balakişiyev 1959-cu il dekabrın 22-də Gəncə şəhərində dünyaya gəlib. 1982-ci ildə daxili işlər orqanlarına qəbul olunub. Xidmətə doğulduğu şəhərdə milis nəfəri kimi başlayıb. Sonrakı illərdə müxtəlif vəzifələrdə çalışıb. Daxili işlər orqanlarında fədakar xidmətinə görə o, ölkə Prezidentinin sərəncamı ilə "İgidliyə görə" medalla təltif olunub. İ.Balakişiyev təşkilatçılıq bacarığı, peşəkarlığı və yüksək insani keyfiyyətləri ilə ona olan etimadı doğruldub, qarşıya qoyulan tapşırıqları şərəflə yerinə yetirib, dəfələrlə Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən mükafatlandırılıb, Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini vəzifəsinədək irəli çəkilib.**

**Polis polkovnik-leytenantı Səməd Yunis oğlu Abbasov 1963-cü il sentyabrın 7-də Gəncə şəhərində doğulub. Daxili işlər orqanlarında 1993-cü ildən xidmət edirdi. İşgüzarlığı, şərəfli peşəsinə sədaqəti ilə seçilən S.Abbasov ictimai asayişin qorunmasında kollektivə həmişə nümunə olub. Polis polkovnik-leytenantı Səməd Abbasovun xidmətləri ölkə rəhbərliyi tərəfindən "İgidliyə görə" medalı ilə mükafatlandırılıb.**

**Şəhid polislərimizin dövlətçiliyə, peşə borcuna və anda sədaqəti, cinayətkarlığa qarşı mübarizədə qətiyyəti daxili işlər orqanlarında xidmət edən hər bir əməkdaşa örnəkdir.**

**Onların əziz xatirəsi xalqımızın yaddaşında, Azərbaycan Polisinin şanlı tarixində əbədi yaşayacaqdır.**

**Hər iki şəhidimizin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyirik.**

**Ramil Usubov, Vilayət Eyvazov, Oruc Zalov, İsmət Əliyev, Şahin Məmmədov, Fazil Quliyev, Fazil Ələkbərov, Yaşar Əliyev, Arzu Daşdəmirov, Mirqafar Seyidov, Həzi Aslanov**

# «XƏZRİ» SİZİ GÖZLƏYİR!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun 2018-ci il tarixdən 15 sentyabr 2018-ci il tarixədək mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd: 1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Bir günlük xərc tək polis əməkdaşı üçün 28.75 manat (iki nəfərlik nömrəni tək tutduqda 42.50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 86,36 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 72,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 115 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 145 manat təşkil edir.

**3.** Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

**4**. 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, trenajorlardan, akvaparkdan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metrostansiyasından 171 nömrəli avtobus gəlir.

**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 1 iyun 2018-ci il - 15 sentyabr 2018-ci il (2 nəfərlik standart otağın qiyməti : iki nəfər qaldıqda 230 manat, bir nəfər tək qaldıqda 170 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 28,75 | 42,50 |
| Onun ailə üzvü (50% güzəştlə) | 57,50 | 85,00 |
| Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 115 | 170 |
| Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 | |

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BAŞ PASPORT, QEYDİYYAT VƏ MİQRASİYA İDARƏSİNƏ BİLAVASİTƏ TABE OLAN ŞƏKİ VƏ İMİŞLİ "ASAN XİDMƏT" MƏRKƏZLƏRİ ÜZRƏ REGİONAL QRUPLARDA VAKANT OLAN 36 (OTUZ ALTI) KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

**Kiçik rəis heyəti vəzifələrinə:** Respublikanın Şəki "ASAN xidmət" mərkəzində (18), İmişli "ASAN xidmət" mərkəzində (18), ümumilikdə 36 vakant yer tutmaq məqsədi ilə keçirilən müsabiqədə aşağıdakı tələblərə cavab verən Azərbaycan Respublikasının qadın vətəndaşları iştirak edə bilərlər.

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşı 20-dən 25-dək, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, Azərbaycan Respublikasının dövlət orta, xüsusi-orta və ali təhsil müəssisələrini bitirmiş, Şəki, Oğuz, Qax, İmişli, Saatlı və Beyləqan rayonlarında yaşayış yeri üzrə daimi qeydiyyatda olan Azərbaycan Respublikasının qadın vətəndaşları iştrak edə bilərlər.

Namizədlərin sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompyuter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsili olan və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2018-ci ilin iyun ayının 27-dən iyul ayının 27-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri, R.Behbudov küçəsi, 130 ünvanında yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-şəxsiyyət vəsiqəsi;***

***-təhsil haqqında sənəd (orta təhsil haqqında attestat və ya diplom);***

***-əmək kitabçası (olanlar üçün).***

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat üçün əlaqə telefonu:**
**(012) 590-64-41 şəhər**
**(012) 590-64-31 (312) daxili**

# İyulun 4-dən 10-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 708 cinayət qeydə alınmış, onların 98-i «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 36 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 93 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 6 nəfər, borclu şəxs qismində axtarışda olan 50 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 32 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 15 nəfər ölmüş, 58 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 36 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 123 nəfər saxlanılmışdır.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi iş yoldaşları Faiq Xudaverdiyevə anası
**GÜLƏNDAM xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Nizami RMİ-nin rəisi Elşən Camalova atası
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sadiq Gözəlov, Ehsan Zahidov, Möhübbət Mehrəliyev Səbinə Səlimovaya anası
**ŞƏFİQƏ xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti iş yoldaşları Emin Bərxudarova əzizi
**HƏMİD kişinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Binəqədi RPİ-nin rəisi Namiq İsmayılov və şəxsi heyəti Elşən Camalova atası
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Sabirabad RPŞ-nin rəisi Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Elşən Camalova atası
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Oğuz RPŞ-nin rəisi Tahir Quliyev və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yardımlı RPŞ-nin rəisi Arif Babayev və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Quba RPŞ-nin rəisi Süleyman Neymətov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Rauf Məcidov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şuşa RPŞ-nin rəisi İlqar Rüstəmli və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lerik RPŞ-nin rəisi Hüseynəli Məlikov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdam RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qobustan RPŞ-nin rəisi Etibar Babayev və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xocavənd RPŞ-nin rəisi Yadigar Hüseynov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daşkəsən RPŞ-nin rəisi Vəfadar Orucov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Füzuli RPŞ-nin rəisi Xəqani Məmmədov və şəxsi heyəti Namiq Camalova əzizi
**YAVƏR CAMALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**


MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10082
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 20:00